# Bayatılar

Əziziyəm qurusun,
Köynəyi sər qurusun.
İlhama güllə atan
Barmaqların qurusun!

Əziziyəm biləndi,
Dərd sinədə göllendi.
Fərizə cavan getdi,
Qərənfilə bələndi.

Əziziyəm öz ordumuz
Tə`rif yazdı söz ordumuz...
Düşmən bizə hiylə qurdu,
Bizi qırdı, öz ordumuz...

Əziziyəm sinə gəldi,
Fil də çəkməz belə dərdi...
Tank yeridi üstümüzə
Vətən oğlu sinə gərdi...

Əziziyəm qan çiləndi,
Ağ üzlərə qan çiləndi.
Qərənfillər yas saxladı
Ləçəyinə qan çiləndi.

Qarabağlı V. Bayatılar // Dan ulduzu. - 1991. – 8 fevral.